

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Milyonların sevimlisi - ÜMİD VƏ PƏNAH QAPISI


3

SƏS
№ 150 (7075)
21 avqust 2024-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycan-Rusiya münasibətlərində faydalı əməkdaşlıq


2

**Prezident İlham Əliyev:"Biz ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin səviyyəsindən çox məmnunuq"**

# Beşinci Respublika öldü...

*Makron Fransada siyasi sistemi "evtanizasiya etdi"*



14

## Azərbaycan BRICS-ə daxil olmaq üçün rəsmi müraciət edib



5

## Hamı ali təhsil ardınca, bəs peşələr?..


6

## Dünya enerjiyə qənaət rejiminə keçir


9

## Ağciyərlərimizi dağlayırlar: ekosistem məhv olur


13

## Bakının bu rayonunda söküntü başlayır


16

# Azərbaycan-Rusiya münasibətlərində faydalı əməkdaşlıq

## Prezident İlham Əliyev:"Biz ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin səviyyəsindən çox məmnunuq"

Azərbaycan dünyanın bir çox ölkələri ilə yanaşı, Rusiya ilə də əlaqələri daim diqqətdə saxlayır. Azərbaycan və Rusiya arasında müxtəlif sahələri əhatə edən müqavilələr, sazişlər imzalanıb. Bu münasibətlər bu gün yeni müstəvidədir. Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə mütəmadi olaraq keçirdiyi görüşlər, ikitərəfli və beynəlxalq gündəmdə olan əsas mövzularla bağlı müzakirələr bu əlaqələrin genişlənməsinə gətirib çıxarır. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə vurğulayıb ki, ictimai-siyasi və humanitar sahələrdə Rusiya ilə Azərbaycan arasında siyasi dialoq, fəal parlamentlərarası və regionlararası əməkdaşlıq tənzimlənib. Ticari-iqtisadi, investisiya, elmi-texniki və humanitar əlaqələr, vətəndaş cəmiyyəti təsisatları arasında kontaktlar genişlənir. Təbii ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bir-birinə bağlayır. Dövlətlərin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır.



### ”SƏFƏR HƏM SİZİN, HƏM DƏ MÜNASİBƏTLƏRİMİZ ÜÇÜN XOŞ OLACAQ”

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana rəsmi səfəri qarşılıqlı münasibətlərin yüksələn bir xətlə inkişafda olduğunu göstərir. Azərbaycan Prezidenti rusiyalı həmkarı ilə məhdud tərkibdə keçirilən görüşündə bildirdiyi kimi, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana hazırkı dövlət səfəri ikitərəfli münasibətlər üçün faydalı olacaq: ”Bu gün gündəlikdə duran məsələləri bir daha müzakirə edəcəyik. Əminəm ki, səfər həm Sizin, həm də münasibətlərimiz üçün xoş olacaq”. Dövlət başçısı bildirib ki, görüşlərimiz müntəzəm xarakter daşıyır. ”Bu il artıq iki dəfə görüşmüşük. Bu gün dövlət səfəri çərçivəsində təmaslarımızı davam etdiririk. Mahiyyət etibarilə artıq müzakirələrə dünəndən başlamışıq. Həm ikitərəfli gündəlik, həm də regional təhlükəsizlik ilə bağlı mühüm məsələlər üzrə geniş fikir mübadiləsi apardıq”.

Xatırlatmaq yerinə düşər ki, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 3 iyul 1997-ci il tarixli Müqavilə, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq və strateji tərəfdaşlıq haqqında 3 iyul 2008-ci il tarixli Bəyannamə və s. bu əlaqələrin təməlinin möhkəmlənməsində xüsusi əhəmiyyət kəsb edir. Əlbəttə ki, ikitərəfli münasibətlər Rusiya Federasiyasının və Azərbaycan Respublikasının xalqlarının maraqlarına tam şəkildə cavab verir, regional və beynəlxalq təhlükəsizliyin və sabitliyin təmin edilməsinə töhfə verir. Dövlətlərarası siyasi dialoq, fəal parlamentlərarası və regionlararası əməkdaşlıq tənzimlənib. Müstəqillik dövründa iki ölkə arasında mövcud olan münasibətləri qoruyub saxlayaraq keyfiyyət və mahiyyətcə yeni səviyyəyə çıxarmaq mümkün olmuşdur. Bu gün Rusiya-Azərbaycan münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır və əməkdaşlığın bütün sahələrini, o cümlədən siyasi, iqtisadi-ticarət, sosial, mədəniyyət, humanitar, təhsil istiqamətləri nəzərdə tutur, eyni zamanda böyük həcmdə hərbi-texniki əməkdaşlığı əhatə edir.

### ”BƏYANNAMƏ UĞURLA YERİNƏ YETİRİLİR, HƏM SİYASİ, HƏM DƏ İQTİSADİ SAHƏDƏ ÇOX MÜSBƏT DİNAMİKA, YAXŞI RƏQƏMLƏR GÖRÜRÜK”

Dövlətimizin başçısının Rusiyaya ardıcıl rəsmi səfərləri Azərbaycanın şimal qonşumuzla dostluq və tərəfdaşlıq əlaqələrinin inkişafına verdiyi önəmi təsdiqləyir. 2022-ci il fevralın 22-də Moskvada Azərbaycan və Rusiya prezidentləri tərəfindən imzalanan ”Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında” Bəyannamə xalqlarımız arasında tarixi dostluq və mehriban qonşuluq ənənələrinə, dərin mədəni və humanitar əlaqələrə əsaslanaraq, dövlətlərarası münasibətlərimizi keyfiyyətcə yeni - müttəfiqlik səviyyəsinə qaldırıb. Məhdud tərkibdə keçirilən görüşdə Prezident İlham Əliyevin bildirdiyi kimi, biz ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin səviyyəsindən çox məmnunuq: ”2022-ci ilin fevralında imzaladığımız müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə uğurla yerinə yetirilir, həm siyasi, həm də iqtisadi sahədə çox müsbət dinamika, yaxşı rəqəmlər görürük. Əlbəttə, həm energetika, həm də nəqliyyat sahələrində əməkdaşlıq edirik, humanitar əlaqələrə, həmçinin bir çox digər sahələrə xüsusi diqqət yetiririk”.

Bəyannamə dövlətlərarası münasibətləri müttəfiqlik səviyyəsinə çıxarıb. Sənəd tərəflər arasında bir çox sahələrdə, o cümlədən hərbi-siyasi sahədə yeni əməkdaşlığın daha da möhkəmlənməsinə təkandır. Bu sənəd postsovet məkanında təhlükəsizlik sahəsində əməkdaşlıq üçün yeni imkanlar yaradır. 4 aprel 1992-ci il tarixində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ərəfəsində imzalanan bu sənədin ölkələrimiz üçün, qarşılıqlı əlaqələrimiz üçün, həm də regional təhlükəsizlik üçün müsbət əhəmiyyəti diqqəti çəkəndir. ”Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Bəyannamə” tarixi əhəmiyyətli sənəddir. Bəyannamə iki ölkənin qarşılıqlı əlaqələrinin ən vacib sahələrini əhatə edir.

Bu sahələrdən biri də humanitar sahədir. Azərbaycanda rus ədəbiyyatına və mədəniyyətinə böyük maraq var. Məktəblərdə rus dilinin öyrənilməsi tam həcmdə saxlanılıb və 300-dən çox məktəb fəaliyyət göstərir. Paytaxtda Azərbaycan Dövlət Rus Dram Teatrı və Slavyan Universiteti fəaliyyətdədir. Rusiyanın aparıcı ali məktəblərinin Azərbaycanda filialları açılıb. Lomonosov adına Moskva Dövlət Universitetinin filialı, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialı çox uğurla fəaliyyət göstərir. Azərbaycanda ali məktəblərin rus bölməsində 15 mindən çox tələbə təhsil alır və rus dilində təhsilə maraq artır. Hər iki dövlətin liderlərinin imzaladığı Bəyannamə tərəflər arasında bir çox sahələrdə əməkdaşlığın daha da möhkəmlənməsinə təkandır.

### AZƏRBAYCAN İQTİSADİYYATINA DÖRD MİLYARDDAN ARTIQ İNVESTİSİYA QOYULUB

Keçirilən görüşdə Moskva və Bakının birgə fəaliyyətinin istiqamətlərinin çox olduğu bildirilib. Rusiya dövlətinin başçısının qeyd etdiyi kimi, ”İqtisadi-ticari əlaqələr uğurla inkişaf edir. Rusiyada keçirilən əvvəlki görüşümüzdə Siz mənə demişdiniz ki, 4 milyarddan bir az çox (illik əmtəə dövriyyəsi - red.) yaxşı rəqəmdir. Bu, yaxşı rəqəmdir, amma bizim imkanlarımızın potensialına uyğun deyil. Həqiqətən burada təkcə energetika, sənaye kooperasiyası, nəqliyyat, logistika, yüngül sənayedən danışmaq olmaz. Bizim birgə fəaliyyətimizin istiqamətləri çoxdur. Azərbaycan iqtisadiyyatına qoyulan dörd milyarddan artıq birbaşa investisiyalar da pis göstərici deyil. Azərbaycanda Rusiya kapitalı ilə 1270 müəssisə fəaliyyət göstərir, sözsüz ki, bu da son hədd deyil”.

Siyasi münasibətlərin ən yüksək səviyyədə inkişaf etdirilməsi iqtisadi münasibətlərin genişləndirilməsinə də müsbət təsirini göstərir. Xüsusilə ölkələrimiz arasında yüksək səviyyəli qarşılıqlı səfərlər, 260 sənədi əhatə edən geniş hüquqi baza və mütəmadi qaydada keçirilən iqtisadi forum və konfranslar ikitərəfli münasibətlərin inkişafında həlledici rol oynayır. Görülən tədbirlər nəticəsində Azərbaycan-Rusiya ticarət-iqtisadi əlaqələrinin dayanıqlı inkişaf dinamikası təmin edilib. Statistik rəqəmlərə nəzər salsaq görərik ki, 2017-ci illə müqayisədə ticarət dövriyyəsi iki dəfədən çox artaraq, ötən il 4,5 milyard ABŞ dollarına çatıb. Bununla yanaşı, 2023-cü ildə iki ölkə arasında ümumi yük daşımalarının həcmi 2017-ci illə müqayisədə 87 faiz, o cümlədən tranzit yüklərin həcmi dörd dəfəyə yaxın artıb. Həmçinin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yük daşımaları 2017-ci illə müqayisədə 44 faizdən çox olub. Ölkələrimizi və tərəfdaşlarımızı birləşdirən ”Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizi yük daşımalarının təhlükəsizliyi baxımından və bir çox ölkələr arasında ticari münasibətləri stimullaşdırmaq üçün qlobal əhəmiyyətə malikdir.

### ÖLKƏLƏRİMİZ ARASINDA MÜNASİBƏTLƏRİN İNKİŞAFINDA YENİ MƏRHƏLƏ

Bu gün sevindirici haldır ki, müasir Rusiya-Azərbaycan münasibətləri dostluq, qarşılıqlı anlaşma, qarşılıqlı dəstək və məqsədyönlülük kimi möhkəm təmələ əsaslanır. Ölkələrimiz arasında əlaqələrin sürətli inkişafının qarşıdakı dövrdə də uğurla davam etdirilməsi və daha da genişləndirilməsi məqsədilə bu ilin yanvarında ”Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsi” imzalanıb. Prezident İlham Əliyevin Rusiyaya işgüzar səfəri çərçivəsində sovet İttifaqında ən nəhəng tikintilərdən biri - Ümummilli Liderin adı ilə bağlı olan Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə təntənəli tədbir keçirildi. Bu yubiley tədbiri BAM-ın tikintisi məsələləri üzrə daimi komissiyasının rəhbəri kimi bu nəhəng layihənin reallaşdırılmasında müstəsna xidmətləri olan Ulu Öndər Heydər Əliyevin xatirəsinə və nümunəvi fəaliyyətinə göstərilən yüksək ehtiramın daha bir ifadəsi idi. Dövrünün ən böyük infrastruktur layihələrindən olan Baykal-Amur Magistralı (BAM) dünyanın ən uzun dəmir yolu xətlərindən biridir. Elə buna görə də BAM xəttini ”Əsrin layihəsi” adlandırırdılar. BAM həm də SSRİ-nin irimiqyaslı iqtisadi layihəsi idi.

Müasir dövrümüzdə Rusiya Cənubi Qafqazda vəziyyətin nizamlanmasında iştirak etməyə hazırdır. Rusiya Prezidentinin bildirdiyi kimi, bu, Cənubi Qafqazda vəziyyətin nizamlanmasına aiddir. ”Aydındır və hamıya yaxşı məlumdur ki, Rusiya, o cümlədən Ukrayna istiqamətində böhranlarla üzləşir. Amma Rusiyanın Cənubi Qafqazdakı vəziyyətdə tarixi iştirakı son bir neçə ildə bizə bu hadisələrə cəlb olunmağın vacibliyini diktə edir, əlbəttə, tərəflərin lazım bildiyi hissədə”, - deyə Vladimir Putin bildirib: ”Əgər biz Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanmasına nail olmaq üçün nəsə edə bilериksə, vəziyyəti delimitasiya, sərhədlərin demarkasiyasına gətirib çıxararıqsa, Sizinlə dəfələrlə qeyd etdiyimiz kimi, müvafiq logistika istiqamətlərinin və ya iqtisadiyyatın qarşısında maneələri aradan qaldırarıqsa, buna çox şad olardıq”. Vladimir Putinin Azərbaycana səfəri ölkələrimiz arasında münasibətlərin inkişafına yeni və mühüm töhfə verəcək.

***Zümrüd BAYRAMOVA***

# Milyonların sevimlisi - ÜMİD VƏ PƏNAH QAPISI

Milyonlarla insanın məhəbbətini qazanan, onların ümid və pənah yerinə çevrilən, ən çətin anlarında yanında olmaq mərhəmətin və xeyirxahlığın ən yüksək nöqtəsidir. Qayğı, ehtiram, alicənablıq, təvazökarlıq kimi keyfiyyətlər insana ucalıq gətirərək, özü də hiss etmədən onu ali dəyərlərin daşıyıcısına çevirir. Sosial müdafiəyə ehtiyacı olan insanların maddi durumunun yaxşılaşdırılması, fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olmaq həssas münasibətdən, qayğıkeş qəlbdən qaynaqlanır. Bu və digər ali dəyərləri ilə insanların doğması tək qəbul etdiyi Azərbaycanın Birinci vitse-prezidenti, Azərbaycanın Birinci xanımı Mehriban xanım Əliyevanın Azərbaycanın ictimai-siyasi, mədəni həyatında müstəsna rola malik olması onun vətənə bağlılığından irəli gəlir. Mehriban xanım Əliyeva qazandığı nüfuzu ilə Onu sevənlərlə özü arasında mənəvi körpü salıb. Böyük və məsuliyyətli missiyanın daşıyıcısı olmaq yükünü üzərinə götürən Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti Onu həyat missiyasından, məramından uzaq salmır. Genişmiqyaslı layihələri ilə məsuliyyət hissini daha da artırır. Ən çətin anlarda, kədərli, hüznlü günlərdə, eləcə də xalqımızın sevincli, iftixarlı zamanlarında insanların yanında olaraq, onlarla öz fikirlərini bölüşmək əlbəttə ki, Mehriban xanım Əliyevaya ucalıq gətirir.



İctimai-siyasi, mədəni həyatda aparıcı qüvvəyə çevrilmək, əməli fəaliyyətilə böyük nüfuza sahib olmaq, örnəyə çevrilmək böyük məsuliyyət və zəhmətin bəhrəsidir. Əlbəttə ki, vətənpərvərlik, vətənə bağlılıq insanı xalqı, milləti üçün böyük amallara xidmət etməyə sövq edir.





## HƏQİQİ XOŞBƏXTLİYƏ VƏ HARMONİYAYA APARAN YOL

Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən Heydər Əliyev Fondunun genişmiqyaslı fəaliyyəti nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda belə əks-səda doğurub.

Azərbaycan tarixinə müstəqil dövlət qurucusu kimi daxil olmuş Ulu Öndər Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmış Heydər Əliyev Fondu müxtəlif layihələr həyata keçirərək, cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Heydər Əliyev ideyalarını dəstəkləyərək, ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə fəaliyyətini davam etdirir. Heydər Əliyev Fondunun prezidenti Azərbaycanın Birinci xanımı, Mehriban Əliyeva hər zaman xalqın yanında olan onun problem və qayğıları ilə maraqlanan və onların çözülməsinə çalışaraq həqiqətən də insanların ümid, pənah yeridir. Ulu Öndər Heydər Əliyev ideyalarını davam etdirən Fondun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında əks-səda doğuraraq, birmənalı qəbul edilir. Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyev haqqında belə deyir: ”O, Vətəninə, müstəqil, çiçəklənən, qüdrətli Azərbaycanda xoşbəxt görmək istədiyi xalqına olan sonsuz sevgisini hər şeydən üstün tuturdu. Bu gün Heydər Əliyev bizimlə olmasa da, onun ideyaları yaşayır, niyyətləri həyata keçirilir. Ən başlıcası onun müqəddəs arzusu reallaşıb”.



Müasir dünyamızın çağırışlarına cavab verən layihələri ilə milyonlarla insanın sevgisini qazanan Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın fəaliyyəti özünün vurğuladığı kimi, sarsılmaz həqiqətlərə söykənir: ”Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir”. Mehriban xanım Əliyeva valideynlərindən əxz etdiyi dəyərləri hər zaman üstün tutaraq, onların öyrətdikləri həqiqətə və mənəviyyata can atmağı özünün həyat məqsədinə çevirib: ”Onlar öz varlığı ilə ləyaqət və şərəf hissinin hər şeydən üstün olduğunu aşıladılar. Öyrətdilər ki, alicənablıq və dürüstlük, mənəviyyat və şəfqət, xeyirxah əməllər, inam və məhəbbət - həqiqi xoşbəxtliyə və harmoniyaya aparan yoldur”. İnsanlığa aparan yol ailədən əxz olundu.

## ”ƏN BÖYÜK XEYRİYYƏÇİ NƏİNKİ AZƏRBAYCANDA, CƏNUBİ QAFQAZDA HEYDƏR ƏLİYEV FONDUDUR”

Hər bir addımı böyük rəğbətlə qarşılanan Fondun humanitar missiyada fəaliyyət proqramlarının həyata keçirilməsi vətəndaşların qayğı və problemlərinin həllində müstəsnadır. Həyata keçirilən bütün layihələr vətəndaşların hərtərəfli qayğı ilə əhatələnməsi, sosial rifahının yüksəldilməsi məqsədini daşıyır. Uşaq bağçalarının, orta məktəblərin, səhiyyə müəssisələrinin təmir və inşası, eləcə də, əqli, fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olması, şəkərli diabet, böyrək çatışmazlığından əziyyət çəkənlərə pulsuz və yüksək səviyyədə yardım və kömək göstərilməsi Heydər Əliyev Fondunun qısa bir zaman məsafəsində gördüyü işlərin uğuru olaraq qəbul edilir. Xeyriyyəçilik və humanizm kimi dəyərlərdən yoğrulmuş fəaliyyət insanlığa, bəşəriyyətə xidmət etmək kimi ali bir dəyərə söykənir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı zamanı söylədiyi fikirləri bir daha xatırlatmaq yerinə düşər: ”Ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur. Fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir.

*Ardı Səh. 4*

# Milyonların sevimlisi - ÜMİD VƏ PƏNAH QAPISI

Əvvəli səh. 3

Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır. Məhz Fondun fəaliyyəti nəticəsində Azərbaycan daha çox tanınır və məhz bu amil bizə İkinci Qarabağ müharibəsi dövründə kömək göstərdi. Çünki Azərbaycan xalqı yaxşı bilir ki, o vaxt erməni lobbisi və onun havadarları Azərbaycan haqqında olmazın yalanlar uydurub media məkanına atmışlar. Ancaq uzun illər ərzində Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə fəaliyyəti və Azərbaycanın müasir, mütərəqqi dövlət kimi tanıdılması bu təbliğatı alt-üst etmişdir. Bu gün Heydər Əliyev Fondu qarşısında yeni vəzifələr dayanır. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün Fond azad edilmiş torpaqlarda geniş fəaliyyətə başlamışdır".





## "CİNAYƏT TÖRƏTMİŞ İNSANLARA BİR DAHA İMKAN VERMƏLİYİK Kİ, ONLAR AZAD HƏYATA QAYITSINLAR"





O, Milli Məclisin deputatı kimi fəaliyyət göstərdiyi illər də əsl peşəkarlıq, siyasi yetkinlik nümunəsi göstərdi. "Siz mənə səs verməklə, sizin və balalarınızın ümidlərinin gerçəkləşməsinə səs vermisiniz" - deyən Mehriban Əliyeva öz fəaliyyəti ilə sübut etdi ki, əzmkarlıq, işləri düzgün qurmaq bacarığı olan yerdə həlli mümkünsüz sayıla biləcək heç bir problem yoxdur. Mehriban Əliyevanın Milli Məclisin deputatı kimi fəaliyyətində yaddaqalan məqamlardan biri onun ədalət, humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq genişmiqyaslı amnistiya aktının qəbul edilməsi təşəbbüsü ilə çıxış etməsidir. 2007-ci il 8 mayda Mehriban xanımın hazırladığı "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərar layihəsinin müzakirəsində o, öz çıxışında qeyd etmişdir ki, "  səhv etmiş, cinayət törətmiş insanlara bir daha imkan verməliyik ki, onlar azad həyata qayıtsınlar, ailələrinə, yaxınlarına qovuşsunlar, cəmiyyətdə öz yerlərini tapa bilsinlər. Ağır cinayət törətməyən insanları bağışlayaraq, biz həm onları normal həyata qaytarırıq, həm də müstəqil Azərbaycanın humanizm prinsipləri əsasında inkişaf etdiyini nümayiş etdiririk".

Azərbaycan parlamentarizmi tarixində ilk dəfə olaraq Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış bu amnistiya aktı böyük mənəvi-əxlaqi və siyasi məzmun daşımışdır. O, bu təşəbbüsü ənənəyə çevirərək 2009 və 2013-cü illərdə də eyni müraciətlə çıxış etmiş və nəticədə 2009-cu ildə 9564, 2013-cü ildə isə təqribən 9000 nəfər azadlığa buraxılmışdır.

## AZƏRBAYCAN HƏQİQƏTLƏRİ BEYNƏLXALQ ALƏMDƏ

Azərbaycan haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmağa önəm verən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş layihələr sırasında "Qarabağ həqiqətləri" bukletlər toplusunun nəşri xüsusi əhəmiyyətə malikdir. "Müharibə və tariximədəniyyət abidələrimiz" kitabında Azərbaycanın işğal olunmuş ərazilərindəki ziyarətgahlar və digər tarixi-mədəniyyət abidələri haqqında ətraflı məlumat verilir. "Qarabağ həqiqətləri" silsiləsinin davamı olaraq 2007-ci ildə Heydər Əliyev Fondu Ermənistanın Azərbaycan mədəniyyətinə, maddimənəvi irsimizə qarşı məqsədyönlü şəkildə həyata keçirdiyi vandalizm siyasətindən və onun acı nəticələrindən bəhs edən "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabını ingilis dilində nəşr etdirdi. Kitaba 30 ilə yaxın ermənilər tərəfindən işğal altında qalmış ərazilərimizdəki mədəni sərvətlərimizin siyahısı, xəritələr, habelə Ermənistan ərazisində və işğal altındakı bölgələrimizdəki tarixi və mədəniyyət abidələrimizin əvvəlki və indiki vəziyyətini əks etdirən videomateriallar əlavə olunub. Rus alimi, yazıçı-tarixçi, professor Rudolf İvanovun "Bəyazidin müdafiəsi: həqiqət və yalan", "Əlahəzrətin general - adyutantı. Hüseyn xan Naxçıvanski haqqında dastan", "Sovet İttifaqı adından" kitabları rus dilində nəşr olunub.

Heydər Əliyev Fondu azərbaycançılıq ideyalarının çarçısı olaraq Azərbaycandan kənarda da amalını gerçəkləşdirmək yönümündə irimiqyaslı layihələri ilə çıxış edir. Onun böyük təşəbbüsü ilə müasir dövrümüzdə fondun ABŞ, Rusiya Federasiyası, Rumıniya və Türkiyədə nümayəndəlikləri fəaliyyət göstərir. Sözsüz ki, belə bir dövlətlərdə nümayəndəliklərin yaranması Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əhəmiyyətlidir.

## "AZƏRBAYCAN - TOLERANTLIĞIN ÜNVANI"

Milli-mənəvi dəyərlərin qorunması və dini ziyarətgahların yenidən qurulması prosesinə fəal surətdə qoşulan Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkədə bir neçə dini ocağın təmiri və yenidən qurulması həyata keçirilmişdir. Fondun təşəbbüsü ilə Gəncədə Comərd Qəssab və Cavad xan türbələri yüksək səviyyədə bərpa edilmişdir. Bu sırada paytaxtın Buzovna qəsəbəsində "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində əsaslı surətdə yenidən qurulan Cümə məscidi də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur.

Bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, ölkəmizdə müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayıblar. Bu gün də belədir. Müasir dünyamızda çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir. Təsadüfi deyildir ki, son illər mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa töhfələrini verir. Müasir dövrümüzdə Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətili işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.

## "SİZİN MEHRİBAN"

Həqiqətən də səmimi hisslər, səmimi münasibət, səmimi görüşlər Mehriban xanım Əliyevanı insanlara daha da yaxınlaşdırır. Xalqın ən çətin və şad günündə onlarla fikirlərini paylaşan Mehriban Əliyevanın "Sizin Mehriban" ifadəsi onunla isti münasibətin daha da sıx olmasına səbəb olub. İnsanlar onu doğması tək qəbul edir və ən çətin anlarında həqiqətən də ümid qapılarına üz tüturlar. "Vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır", - deyən Mehriban xanım Əliyeva gələcək fəaliyyətini, məhz bu prinsiplər əsasında quracağına əminlik ifadə etmişdir: "Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam". Həqiqətən də belə oldu. Mehriban xanım bütün fəaliyyəti dövründə xalqın maraqlarını əsas götürərək, ictimai, sosial layihələri ilə öz ətrafında böyük imic formalaşdırıb. 44 gün davam edən müharibədə Müzəffər Azərbaycan Ordusunun təcavüzkar Ermənistanı məğlub edərək, işğaldan azad etdiyi Vətən torpaqlarında bu gün həyata keçirilən tikintibərpa işlərində Mehriban xanım Əliyevanın da həyata keçidiyi layihələr töhfəsini verməkdədir. Böyük Qayıdışın möhtəşəm olacağına əminik və bu işdə Mehriban Əliyevanın payı müstəsna olacaqdır. Möhtəşəm "Xarı Bülbül" festivalına rəhbərlik etməsi bütün dünyaya səs saldı. 30 ildən sonra "Qarabağ şikəstəsi" Cıdır düzündə səslləndirildi. Artıq bu işlərin ilkin addımlarını və reallaşan layihələri görürük. Heydər Əliyev Fondu məscidlərin təmirini öz üzərinə götürüb. Artıq görülən işlər kifayət qədərdir. Damarlarında azərbaycanlı qanı qövr edən Böyük Ziyalının işığında Azərbaycanın hər bir bölgəsində əməyini, layihələrini görürük.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Rusiya Prezidentinin Azərbaycana səfəri Gürcüstan mətbuatının diqqət mərkəzində olub

***Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putinin Bakıda keçirdikləri görüş, dövlət başçılarının mətbuata bəyanatlarında səsləndirdikləri fikirlər Gürcüstan mətbuatının diqqət mərkəzində olub. Belə ki, bu ölkənin ”interpressnews.ge”, ”apsny.ge”, ”24news.ge”, ”interpress.ge”, ”aktual.ge”, ”newsday.ge”, ”saqinform.ge” informasiya portalları, ”1tv.ge”, ”pirveli tv”, ”rustavi2.ge” televiziya kanalları Azərbaycan və Rusiya prezidentlərinin fikirləri əsasında geniş materiallar yayıblar.***

Materiallarda Ermənistan ilə Azərbaycan arasında davamlı sülh müqaviləsinin imzalanması, Rusiya neftinin nəqli, Cənubi Qafqaz regionunda sabitlik, eləcə də dünyada meydana gələn yeni çağırışlar barədə fikirlər yer alıb.


ილჰამ ალიევი და ვლადიმერ პუტინი ბაქოში აზერბაიჯანსა და სომხეთს შორის ურთიერთობების დარეგულირების საკითხს განიხილავენ

საქართველო, 19 აგვისტო, **საქინფორმი**. **ვლადიმერ პუტინი** და **ილჰამ ალიევი** ბაქოში აზერბაიჯანსა და სომხეთს შორის ურთიერთობების დარეგულირების საკითხს განიხილავენ.

რუსული მედია ვიზიტთან დაკავშირებულ მასალებზე დაყრდნობით წერს, რომ პრეზიდენტები განიხილავენ მოსაზრებებს რეგიონული და საერთაშორისო პოლიტიკის აქტუალურ საკითხებზე.

**„მთავარ ამოცანად რჩება სამშვიდობო ხელშეკრულების ხელმოწერა, აზერბაიჯან-სომხეთის საზღვრის დელიმიტაციისა და დემარკაციის პროცესის ხელშეწყობა, რეგიონში სატრანსპორტო, ლოგისტიკური და ეკონომიკური კავშირების განბლოკვა 2020-2022 წლების უმაღლეს დონეზე სამმხრივ შეთანხმებებზე დაყრდნობით. რუსული მხარე მზად არის, გააგრძელოს ყველა შესაძლო დახმარება აზერბაიჯანსა და სომხეთს შორის ურთიერთობების ნორმალიზებისთვის**“, – აღნიშნულია მასალებში.


ვლადიმერ პუტინი აცხადებს, რომ რუსეთი და აზერბაიჯანი ნავთობპროდუქტების გადასაზიდად თანამედროვე ტანკერების წარმოებას იწყებენ


აზერბაიჯანისა და რუსეთის პრეზიდენტებმა ბაქოში გამართული მოლაპარაკებების შემდეგ ერთობლივი განცხადება მიიღეს

## İqor Korotçenko: “Rusiya və Azərbaycan liderlərinin Bakıdakı danışıqları qlobal beynəlxalq hadisədir”

***Cənubi Qafqazın beynəlxalq aləmdə rolu və əhəmiyyəti artır. Bu, regionda baş verən proseslərlə əlaqədardır. Belə ki, Cənubi Qafqaz qlobal əhəmiyyətə malik olan qlobal multimodal nəqliyyat dəhlizlərinin keçdiyi əsas regiondur. Bu fikirləri AZƏRTAC-ın müxbiri ilə söhbətində Xəzər Strateji Tədqiqatlar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko ifadə edib.***



Ekspert vurğulayıb ki, öz ərazi bütövlüyünü və suverenliyini bərpa edən Azərbaycan mövqelərini ciddi şəkildə möhkəmləndirib. Eyni zamanda, Ermənistan isə onu öz təsir dairəsinə cəlb edən bir sıra təsisatların oyuncağına çevrilib.

İ.Korotçenko əlavə edib: ”Biz Fransa, ABŞ kimi ölkələrin və Avropa İttifaqının ayrı-ayrı nümayəndələrinin Ermənistanın köməyi ilə regionda sabitliyi pozmaq və öz milli maraqlarını, həm də region dövlətlərinin maraqları ilə qətiyyən üst-üstə düşməyən məqsəd və vəzifələrini reallaşdırmaq üzrə oynadığı destruktiv rolu görürük. Bu baxımdan, başa düşürük ki, Cənubi Qafqazda baş verənlər böyük dərəcədə regiondakı əsas aktorların mövqeyi ilə müəyyənləşəcək. Təbii ki, onlardan biri də Azərbaycandır”.

Ekspert Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana səfəri zamanı Prezident İlham Əliyevin ünvanına səsləndirdiyi fikirləri xatırladıb: ”Siz Qafqaz regionunu nəzarətdə saxlamağa qadirsiniz. Bu, artıq təkcə Azərbaycana görə məsuliyyət daşımaq demək deyil, Siz artıq bütün Qafqazdakı vəziyyətə cavabdehsiniz”. Korotçenko əlavə edib: ”Həqiqətən, Azərbaycan regionun təhlükəsizliyinə və sabitliyinə cavabdehdir. Bu kontekstdə Bakıda Rusiya Prezidenti Vladimir Putinin və Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə aparılan danışıqlar olduqca mühümdür, deyərdim ki, bu, qlobal beynəlxalq hadisədir”.

Baş direktorun sözlərinə görə, Rusiyada hesab edirlər ki, səfər zamanı imzalanan bir sıra sənədlər Rusiya-Azərbaycan münasibətlərinin kompleks şəklində inkişafına kömək edəcək və Ermənistandan alət kimi istifadə edən xarici aktorların regionda vəziyyəti gərginləşdirmək cəhdlərinin qarşının alınmasına yönəlib”.

Dövlət başçılarının Azərbaycan liderinin evində qeyri-rəsmi şam yeməyini şərh edən Korotçenko qeyd edib ki, Rusiya Azərbaycanın timsalında ən yaxın müttəfiqini və tərəfdaşını görür. O əlavə edib: ”Rusiyada İlham Əliyevi görkəmli dünya siyasətçisi, ölkəsinin suverenliyini və ərazi bütövlüyünü bərpa etmiş lider, hörmətli, nüfuzlu şəxsiyyət və ziyalı kimi qiymətləndiririk. Onun həyat yoldaşı Mehriban Əliyevaya gəlincə, Rusiyada hamımız onun intellektinə, gözəlliyinə heyranıq. O, görkəmli qadın və siyasətçidir. Belə bir dairədə də çox ciddi məsələlər müzakirə oluna bilərdi”.

## Azərbaycan BRICS-ə daxil olmaq üçün rəsmi müraciət edib

Azərbaycan BRICS-ə daxil olmaq üçün rəsmi müraciət edib. Bunu AZƏRTAC-a açıqlamasında Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə deyib.




Qeyd edək ki, hazırda 9 üzvü olan BRICS 2006-cı ildə yaradılıb (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası, Misir, Efiopiya, İran və Birləşmiş Ərəb Əmirlikləri). BRICS 2009-cu ildən bəri hər il rəsmi sammitlərdə toplaşan və çoxtərəfli siyasətləri koordinasiya edən vahid geosiyasi bloka çevrilib.

Xatırladaq ki, bu il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində ”Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olunub. Bəyannamənin 4.5-ci bəndinə əsasən, Azərbaycan tərəfi BRICS-ə daxil olmaq arzusunu ifadə edib və Çin tərəfi BRICS əməkdaşlığında Azərbaycanın iştirakını dəstəkləyib.

# Hamı ali təhsil ardınca, bəs peşələr?..

***Vaxt var idi ki, oxuyan təhsil ardınca gedirdi, oxumayan da özünə bir sənət, peşə seçirdi. Sənədlərini ya 8-ci sinifdən, ya da tam orta təhsili başa vurduqdan sonra peşə məktəblərinə verib bir peşənin sahibi olmağa çalışanlar var idi. Bunu övladlarına valideynlər də məsləhət bilir, ona peşə seçməsində bacarıqlarını əsas götürməklə kömək edirdi. Beləliklə də bir məktəbin sonuncu sinfini bitirən gənclərin təxminən 10-u ali məktəbə, 3-5-i orta ixtisas məktəblərinə, 4-5-i isə peşə məktəblərinə daxil olurdu. Peşə məktəblərində isə onlar elə yetişdirilirdi ki, sabah peşələrinin sahibinə çevrilir, həm dövlətə, cəmiyyətə xeyir verirdilər, həm də öz ailə büdcələrini yarada bilirdilər.***






## Oxumaq dəbi

Bəs sonra necə oldu? Haradasa, 90-cı illərin sonlarından etibarən cəmiyyətimizdə 3 hadisə bir-birini izləməyə başladı. Birincisi, insanlar yeni bir xəstəliyə mübtəla oldu- kütləvi şəkildə ali təhsil almaq xəstəliyinə. Deməli, bu xəstəliyin patologiyası belə idi ki, hamının uşağı təhsil almalıdır. Oxudu, oxumadı, uşaqlar təhsilli olmalıdır. İkincisi, bu, bir dəbə çevrildi. Bütün valideynlər övladlarının ali təhsil alması üçün əlindən gələni etməyə başladılar. Üçüncüsü isə bu oldu ki, bəhsəbəs cəmiyyəti ağzına aldı. Filankəsin uşağı oxudu, mənimki nə üçün oxumasın, qonşunun uşağı ali məktəbə girdi, mənimki nə üçün geri qalsın. Sağ olsun, ozamankı Dövlət İmtahan Komissiyası da bütün bunlar üçün çox optimal şərait yaradırdı. Yəni, gündən-günə balları aşağı endirib, ödənişli ixtisasların sayını artırmaqla valideynlərə kredit götürüb, borc alıb uşaqlarını universitetlərdə oxutmalarına şərait yaradırdı. Bu isə cəmiyyətin taleyində baş verən 3 hadisənin tələbatını artıqlaması ilə ödəyirdi. Odur ki, artıq peşə məktəblərinə ehtiyac qalmırdı. Yəni, kütləvi şəkildə peşə məktəblərindən uzaqlaşma başlamışdı. Uşağının peşə məktəbində oxumasını sanki valideynlər özlərinə sığışdırmırdı.





Həmin illərin statistik göstəricilərinə nəzər salınsa, dediklərimiz təsdiqlənər ki, peşə məktəblərinə qəbulun səviyyəsi tamamilə aşağı enmişdi. Hələ arada bəzi peşə məktəbləri bağlandı. Və yaxud da sayları azaldıldı. Nəticədə isə universitetlərdə təhsil alanların sayı artdı. Oxumayanlar isə heç bir bacarığı və ya peşə təhsili olmadığına görə özlərinə iş tapmaqda çətinliklərlə üzləşdilər.

Həmçinin də universitetə aşağı balla daxil olanlar iş tapmaqda çətinlik çəkdilər. Çünki işləmək üçün yenə də imtahan tələb olunur. Bu imtahanlarda isə suallar çətin olduğu üçün 200-250 bal ilə universitetə daxil olanların bu suallar qarşısında məəttəl-məəttəl baxmaqdan başqa çarəsi yox idi.

## Bir-birindən gözəl peşələr

Bütün dövrlərdə peşə sahibləri olub ki, onlara el arasında "sənətkar", "usta" adları verilib. Məsələn, sürücülər tanımışıq ki, onlara yaşadığı rayonda hər kəs "usta" deyə müraciət edirdi. Çünki sənətinin sahibi idi. İllərlə insanları ən ucqar dağ kəndlərinin abadlıqdan kənar yolları ilə rayon, şəhər mərkəzlərinə aparıb gətirmiş, çalışdığı dövrdə heç bir qəza olmamışdı. Avtomobil təmiri ilə məşğul olan peşə sahibləri tanımışıq ki, necə deyərlər, əlləri qızıl kəsib. Yaşadığı ərazidə heç də ən yüksək vəzifədə çalışanlardan pis dolanmayıb. Qazancı əla olub. Nə üçün? Çünki sənətinin sahibi olub. Qarşısına qoyduğu məqsədə müvəffəqiyyətlə çatıb, olub usta. Həm hörməti olub el arasında, həm də qazancı.

Zərgərlər tanımışıq, həqiqətən də əlləri zərgər insanlar. Onların çox böyük zövqlə və incəliklə hazırladığı zinət əşyaları hər kəs tərəfindən təqdir olunub, sifariş sifariş üstünə gəlib. Qazancı da heç də müəllim, həkim, mühəndislərdən aşağı olmayıb.

Diş texnikləri tanımışıq. Evində və yaxud da yaşadığı kənd, qəsəbə, şəhərdə hansısa binanın bir-iki otağını kirayələyərək çalışıb. Bu işi görməsi üçün heç orta ixtisas tibb təhsili də olmayıb. Sadəcə kurslarda iştirak edib, peşənin sirlərini öyrənib. Həmin adamlar öləndək də diş texniki kimi çalışıblar. Xəstələri də dəstə-dəstə gəlib. Çünki seçdikləri peşəni dərindən öyrəniblər. Qazancları da əsla təhsilli adamların qazancından geri qalmayıb.

Dülgərlər tanımışıq, adları yaşadıqları mahalla bir olub. Onların düzəltdiyi qapı-pəncərələr indi də evlərimizin yaraşığıdır. Böyük zövqlə, keyfiyyətlə taxta üzərinə köçürdüyü məharəti həmişə, necə deyərlər, müştərisini baş üzərində edib beləlerinin. İnsanlar qapı, pəncərə düzəltdirmək üçün aylarla növbə gözləməli olublar. Bu ustaların evləri də, həyətləri də, dolanışıqları da ən yüksək vəzifədə çalışanlardan yaxşı olub.

Dərzi, pinəçi, daş ustaları, xalçaçı, tərəvəzçilər tanımışıq ki, əlləri zərgər olub. Nəinki yaşadıqları yerdə, qonşu şəhər-kəndlərdə də məşhur olublar. Onların sorağı ilə insanlar kəndbəkənd, şəhərbəşəhər gəlib işlərini onlara gördürməyi məsləhət biliblər. Onlar da ki, hər zaman ən yüksək səviyyədə yaşayıblar. Əllərinin zəhməti, alınlarının təri ilə özləri üçün hərtərəfli şərait yaradıblar. Heç də təhsili olanlardan geri qalmayıblar.

## Kamil bir palançı və ya yarımçıq papaqçılıq...

Beləliklə də bu qənaətə gəlmək olar ki, bəli, dahi şairimiz Nizami Gəncəvinin də dediyi kimi, kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan. Bəli, istər orta ixtisas, ali, magistratura, aspirantura, istərsə də hər hansı peşə təhsili olsun, sənətə və peşəyə kamilcəsinə yiyələnmək, onu sevmək ən üstün cəhətlərdəndir. Belə olan təqdirdə ailən üçün hər zaman qazancın olacaq. Belə olan təqdirdə heç kimin qarşısında gülünc vəziyyətdə qalmayacaqsan.

Belə isə nə üçün bu gün övladlarımızı bir peşə öyrənməsi üçün peşə məktəblərinə yollamırıq və yaxud da hər hansı usta yanına qoymuruq. Nə üçün yenə də həmin 3 iddianı davam etdiririk? Xəstəlik, dəb və bəhsəbəs iddialarını. Axı bilə-bilə ki, övladımız müəllim olmaq üçün yetərli savada malik deyil, mühəndis, tibb bacısı, feldşer, hərbi rəhbər, psixoloq (onlarla saya biləcəyimiz ixtisaslar var) olmaq üçün qabiliyyəti, bacarığı, səriştəsi yoxdur, onu nə üçün oxumağa vadar edirik, nə üçün illərlə ailə büdcəsinə ziyan vuraraq onu müəllim yanına hazırlıqlara göndəririk? Sonda isə görürük ki, həqiqətən də bu uşaq bu sahələr üçün yaranmayıb. Biliyi, dünyagörüşü, xüsusilə də istək və arzusu müəllim, həkim, tibb bacısı, mühəndis olmaq üçün deyil. O, bu sənətlərdə özünü tapa bilmir. Elə bu səbəbdəndir ki, indi cəmiyyətimizdə yüzlərlə insan var ki, hər hansı bir təhsili alıb, lakin gözəllik salonlarında manikürçü, saç kəsən, mağazalarda satıcı, idarə, müəssisələrdə texniki işçi kimi çalışır. Bu, onun göstəricisidir ki, valideynlərinin iddiası ilə zorla bir ali təhsil alıb, artıq özünü dərk edəndən sonra isə düşünüb, yox, bu sahə mənlik deyil. Yenidən hansısa kurslara, təlimlərə getməklə bacardığı işin qulpundan yapışmağa çalışıb. Bax, bu da son nəticə: ali təhsilli manikürçü, dərzi, pinəçi, fəhlə və sair.

## Uşaqlarımızın maraqlarını kəşf edək

Düşünməyə dəyər. Hələ də cəmiyyətimizdə ali təhsillə bağlı xəstəliyin, dəbin və bəhsəbəhsin tüğyan etdiyi bir şəraitdə söyləmək yerinə düşər ki, düşünmək gec deyil. Özümüzə əziyyət verməyək. Qazandığımızı digər övladlarımızın ruzisindən kəsib hazırlıqlara verməyək. Uşaqlarımızın kiçik yaşlarından hansı peşəyə, sənətə maraqları olduğunu kəşf edək. Böyüdükcə onları istədikləri sahələrə istiqamətləndirək. Qoy onlar ali təhsilli də olsunlar, orta ixtisas təhsilli də. Qoy onlar dərzi, dülgər, manikürçü, tərəvəz ustası, xalçaçı, zərgər də olsunlar. Hazırda ölkəmizdə fəaliyyət göstərən peşə təhsili məktəblərində onlarla peşə təklif olunur. Onlardan yararlanmağa çalışmaq lazımdır.

Baxmayaraq ki, bu gün də Dövlət İmtahan Komissiyası tərəfindən ballar endirilir. 200 bal toplayan abituriyentlərin ali məktəblərdə təhsil almaları üçün şərait yaradılır. Lakin gəlin valideyn olaraq özümüz daha dərindən düşünək. Bizə bunların hansı sərf edir? 2-3 il hər ay 100-200 manat verib hazırlığa göndərdiyimiz uşaqlarımızın son nəticə olaraq 200 bal toplayıb ali təhsil almasını, yoxsa elmə marağının olmadığını hiss etdiyimiz andan etibarən hər hansı bir peşəyə yönəldilməsimi? Onsuz da oxumaq həvəsi olmayan gənc ali təhsil alsa da, özünü başqa bir peşədə tapacaq. Belə isə ailə büdcəsinə zərər vurmağa dəyərmi?

Axı peşələr də cəmiyyət üçün gərəkdir. Bəs hər birimiz ali təhsil alıb müəllim, mühəndis, həkim və sair olacağıqsa, bizim paltarımızı kim tikəcək, dırnağımızı kim manikür edəcək, saçımızı kim kəsəcək. Maşınımızı kim təmir edəcək, xəyalımızdakı zinət əşyasını və yaxud qapı-pəncərələrimizi kim düzəldəcək?..

***Mətanət Məmmədova***

# Erməni terroru: insanlıq üçün faciə səhifəsi!



Bəşəriyyət tarixində on minlərlə müharibələr, münaqişələr, vətəndaş qarşıdurmaları yaşanıb. Bu savaşlarda milyonlarla insan öldürülüb, şəhərlər, qəsəbələr, kəndlər dağıdılıb. Lakin sübuta yetirilən fakt ondan ibarətdir ki, baş verən müharibələr zamanı işğalçıların törətdikləri vandal aktları arasında ən amansızı və dəhşətlisi ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktları olub. Tarix erməni vəhşiliyi miqyasında vəhşilik görməyib. 30 illik işğal dövrü zamanı erməni terrorçu toplumları Azərbaycanın tarixi abidələrini, məscidlərini, şəhərləri, kəndləri, qəbiristanlıqları xarabazarlıqlara çevirmişlər. İşğaldan azad edilmiş hər bir kənd və qəsəbəsində, şəhərlərində Ermənistan terrorçu dəstələrinin vandalizm aktlarının izlərinə rast gəlmək olar.

Azərbaycanda səfərdə olan İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Maliki işğaldan azad edilən ərazilərə səfərindən sonra jurnalistlərə verdiyi açılamasında gördüyü erməni vəhşiliyindən dəhşətə gəldiyini söyləyib: "Bizim burada gördüyümüz mənzərə əsl faciədir. Biz işğaldan azad olunmuş torpaqlara səfər zamanı bütün kəndlərin, yaşayış yerlərinin, tarixi və dini abidələrin dağıdıldığını gördük. Məscidlərin, dini məbədlərin dağıdılması, təhqir olunması, vandallığa məruz qalması qəbulolunmazdır. Dini məkanlara hörmətlə yanaşılmalı, onlar qorunmalıdır. Əminəm ki, dağıdılmış bu ərazilərdəki bütün dini-mədəni abidələr bərpa olunacaq. Təbii ki, yalnız ölkə və bölgə, region səviyyəsində deyil, dünya səviyyəsində insanların dini inanclarına fərq qoyulmamalı, hər bir dinə məxsus məbədlərə hörmət olunmalıdır". ICESCO Baş direktoru Salim bin Məhəmməd əl-Maliki onu da bildirib ki, hər bir müharibə təəssüf ki, əraziləri dağıntılara məruz qoyur, həmçinin müxtəlif obyektləri: "Amma buna baxmayaraq, dini-mədəni məkanların və mədəni irsin dağıdılması yolverilməzdir. Bəzən biz məlumatları alırıq, eşidirik, oxuyuruq. Amma gəlib gözümüzlə gördüyümüz mənzərə bizi çox kədərləndirir və hər birimizə təsir edir".

### Erməni terroru Avropaya yayıla bilər

İşğaldan azad edilən ərazilərdə ermənilərin törətdiyi vəhşiliklər, vandalizm aktları dünya üçün fəlakət deməkdir, insanlığa yönələn faciədir. Ona görə də, Birləşmiş Millətlər Təşkilatı başda olmaqla digər aparıcı beynəlxalq qurumlar erməni vəhşiliyinin dayandırılması və digər ölkələrə keçməsinin qarşısının alınması üçün təsirli və təcili tədbirlər görməlidir. Əks halda gec ola bilər. Sonrakı mərhələdə erməni terror maşını dünyanın əksər bölgələrinə yayıla bilər. Bu zaman Şuşada, Cəbrayılda, Xocalıda, Ağdamda, Füzulidə, Kəlbəcərdə yaşanan erməni soyqırımları Avropada, Asiyada və digər bölgələrdə yaşana bilər. Nəzərə almaq lazımdır ki, işğaldan azad edilən ərazilərə səfərləri çərçivəsində Ağdam şəhərində olan səyahətçilər gördükləri dağıntılardan təsirləndiklərini və bölgəni "Qafqazın Xirosiması" adlandırmışlar. Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evləri, ictimai binalar, məktəblər, uşaq bağçaları, xəstəxanalar, istehsalat müəssisələri talan edilib, dağıdıb və yandırılıb. Hər şeyi məhv edən erməni vandalları tarixi abidələri, qəbiristanlıqları da dağıdıblar. Vaxtilə Azərbaycanın ən varlı rayonu olan Ağdamın yerində indi talan edilərək dağıdılmış Qafqazın Xirosimasına çevrilmiş xarabalıqlar qalıb. Füzuli rayonu ərazisindəki memarlıq abidələri yerlə yeksan olunub. Qarğabazar kəndində XVII əsrə aid karvansara və məscid, XVIII əsrə aid türbə, Aşağı Ayıbasanlı kəndində İbrahim türbəsi, Qoçəhmədli kənd məscidi, Aşağı Veysəlli kəndində XII əsrə aid qəbiristanlıq və Mir Əli türbəsi (XIII əsr), Horadiz məscidi və İmamzadə türbəsi, Füzuli şəhərində Qacar, Böyük Pirəhmədli, Merdinli kəndlərindəki məscidlər, Saracıq və Gorazıllı kəndlərindəki körpülər, Merdinli kəndi yaxınlığındakı daşdan yonulan at, qoç fiqurları, dünyanın ən qədim insan məskənlərindən olan Azıx mağarası, həmçinin kurqan tipli arxeoloji abidələr erməni vandalizminin qurbanı olublar. Otuz ilə yaxın erməni işğalı altında qalmış Füzuli rayonunun təbii sərvətləri də talan olunub. Ermənilər meşələrdəki ağacları vəhşicəsinə qırıb, yaxud yandıraraq məhv ediblər. Cəbrayıl şəhərinin yaxınlığındakı Orta əsrlərə aid qəbiristanlıq da ermənilər tərəfindən yerlə-yeksan edilib. Qiymətli qəbir daşları talan edilərək aparılıb, qəbirlər qazılaraq çıxarılıb, insan sümükləri ətrafa səpələnib. Ermənilər qəbiristanlıqları dağıtmaqla tarixi keçmişimizi, mənəvi yaddaşımızı silmək istəyiblər. Lakin insanlığa sığmayan bu əməlləri ilə əsl xislətlərini, barbarlıqlarını bir daha nümayiş etdirmiş olublar.

### Tarixi dərslərdən nəticə çıxarılmalıdır

Erməni vəhşiliyini gördükdən sonra bu qənaətə gəlirsən ki, bəşəriyyət, xüsusilə də özlərini dünyanın aparıcı dövlətləri və liderləri kimi təqdim edənlər insanlıq hissini itiriblər. Çünki susurlar, danışmırlar, ermənilərin bir toplum olaraq yer üzündən silinməsi üçün təsirli tədbirlər görmürlər. Bu da ona dəlalət edir ki, bəzi aparıcı dövlətlər erməni terrorunun yaşamasında maraqlıdırlar. Elə ulu əcdadlarımız da ermənilərin bir toplum kimi mövcudluğunun saxlanmasında az günahkar deyillər. Ən az ulu sərkərdələrimiz, böyük fatehlərimiz ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinin qarşısını ala bilərdilər. Bu baxımdan bugünkü nəsil Teymurləngi, Şah İsmayıl Xətaini, Nadir Şahı və digər sərkərdələri qınayırıq, erməni toplumunun kötüyünü vaxtında kəssəydilər, bu gün bizlər onların terrorunun qurbanı olub, əziyyət çəkməzdik. Etinazılıq göstərilməsindən bəhrələnən ermənilər böyük güclərin hərbi, siyasi dəstəyinə arxalanmaqla Cənubi Qafqazad yerləşdilər. Möhkəmləndikdən sonra isə azərbaycanlılara qarşı qətliamlar həyata keçirdilər, evləri dağıtdılar, şəhərləri, kəndləri viran etdilər. Nəticədə son iki yüz il ərzində 2 milyon azərbaycanlı erməni vəhşiliyinin qurbanı oldu, İrəvanı özününküləşdirdilər, Qafanı, Görusu, Dərələyəzi və digər onlarla yaşayış məskənimizi işğal etdilər. Erməni toplumu bəzi güclərin dəstəyi ilə Azərbaycan ərazilərinə köçürülməsi prosesi on doqquzuncu əsrin sonu iyirminci əsrin əvvəllərin də daha sürətlə aparılmışdır. Nəticədə XX əsrin əvvəllərində xarici ölkələrdən köçürülən ermənilərin sayının bir milyona çatması bölgədə demokratik vəziyyətin tamamilə dəyişməsinə səbəb olmuşdur. Erməni daşnak millətçilərinin "böyük Ermənistan" ideyasını həyata keçirmələri ilə bağlı təbliğatları Qafqaz bölgəsini milli qırğınlara gətirib çıxarmışdır. 1905-1906-cı illərdə Bakıda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Gəncədə və Cənubi Azərbaycanda bu qırğınlar davam etmişdir. Erməni daşnak quldur dəstələri 1905-ci il noyabrın 28-də Qarabağ bölgəsinin şəhər və kəndlərini yandıraraq, uşaqlara, qadınlara və qocalara qarşı görünməmiş vəhşiliklər törətmişlər.Erməni quldur dəstələri yalnız Şuşa,Cavanşir və Cəbrayıl qəzalarında 75-ə qədər Azərbaycan kəndini, İrəvan və Zəngəzur quberniyalarında isə 200-dən çox yaşayış məntəqəsini dağıtmış əhalini vəhşicəsinə qətlə yetirmişlər.Erməni terrorçuları hələ 1904-cü ilin sentyabrında Bakı şəhərində bir neçə azərbaycanlını qətlə yetirmişlər. Bu qətllər isə ermənilər tərəfindən xəbərdarlıq xarakteri daşımışdır. 1905-ci il fevralın 5-də erməni terrorçu dəstələri Bakı qəzası Sabunçu kəndinin sakini Ağarza Babayevi öldürmüşlər. Qətl ixtişaş yaratmaq məqsədilə törədilmişdir. Elə həmin gün erməni quldur dəstələri realnı və texniki məktəblərin 7-ci sinif şagirdləri Yakov Lebedivi və İvan Volkovu öldürmüşlər. Erməni alimi C. Libardyanın yazdığına görə üç il ərzində (1904-1906-cı illər) erməni terrorçuları 105 "siyasi qətl" törətmişlər. Bunların 56-sı ermənilərə qarşı, 32-si siyasi bəhanələrlə həm ruslara, həm də türk məmurlarına və zabitlərinə qarşı, 2-3-ü təsadüfən heç bir səbəb olmadan, qalanları isə bankirlərə və sələmçilərə qarşı olmuşdur. Alimlər Libardiyanın göstərdiyi rəqəmləri araşdıraraq yazmışlar: "... Bu qısa üç illik dövrdə erməni terrorçuları tərəfindən öldürülmüş, erməni mənşəli hər iki adamla yanaşı bir qeyri-erməni mənşəli şəxsdə öldürülmüşdür. Məqsəd dəyişməyibdir: dinc ermənilərin böyük əksəriyyətini qəsdən qorxutmaq, onları terrorçuların fəaliyyətini təsviq etmək məcburiyyətində qoymaq".1905-ci ilin fevralın 6-da Bakıda Mixaylov xəstəxanasının sənədlərinə görə erməni milyonçuları Balabek Lalayevin, Artyom Babayantsın, İsay Ter Osipovun və başqa maqnatların havadarlığı sayəsində terror qrupu 18 adamı öldürmüş və 33 nəfəri yaralamışdır. Onların 34-ü azərbaycanlı,6-sı rus, 6-sı erməni, 5-i isə başqa millətin nümayəndələridir. 1905-ci ilin fevralın 7-də erməni terror təşkilatı Bakıda 100-dək dinc vətəndaşımızı öldürmüş və yaralamışdır. Erməni quldur dəstələri 1905-ci ilin fevralın 9-da Bakı sakinlərini qətl və qarətlərə məruz qoymuşdular. Erməni dəstələri kütləvi qırğınlar törətdikdən sonra varlı ermənilərin (Balabek, Lalayev, Artyom Babayants, Akop Muradyan, Karen Saakyants və b.)evlərinə yığışmış, onların pəncərələrindən və damlarından şəhərin küçələrinə atəş açmış, ingilis, fransız istehsalı olan bombalar, qumbaralar atmışlar. 1905-ci ilin qırğınları tarixə "Bakı şəhərində qanlı qətliqən" kimi düşmüşdür. "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının idarə etdiyi quldur dəstələri 1905-ci ilin 20-21 fevralında İrəvan şəhərinin müsəlman sakinlərinə qarşı insanlığa yaraşmayan hərəkətlər edərək qırğınlar, vəhşiliklər etmişlər.

### Son iki yüz il ərzində Qafqazda dinclik olmayıb

1905-ci il mayın 11-də Bakı şəhərində erməni terrorçuları Qafqaz xalqları arasında dostluq əlaqələri ruhunda çıxış edən knyaz M.A. Nakaşidzeni və Q. Takiyeskilini qətlə yetirdilər. Bu hadisənin şahid R.R. Subinski öz xatirələrində göstərmişdir. O dövrün məlumatlarına əsasən, qatillərdən biri Dro ləqəbli Drastamat Xanayan idi. Bu hadisələrdən əvvəl Dro Zəngəzur mahalında erməni quldur dəstələrinin tərkibində dinc azərbaycanlılara qarşı qanlı qırğınlarda yaxından iştirak etmişdi. Erməni daşnak quldurları 1905-ci ilin mayın 24-də İrəvan quberniyasında dinc azərbaycanlılara atəş açdılar. Qarışıqlıqdan istifadə edən erməni saqqallıları on bir vətəndaşdörd qadın, iki uşaq və beş kişini qətlə yetirdilər. Bu qanlı hadisələrdən doymayan erməni quldur dəstələri 1905-ci ilin mayında Naxçıvan torpağına hücum edərək dinc əhaliyə qarşı qanlı divan törətdilər. Çoxlu sayda qadın, qoca və uşağı öldürdülər. Ermənilər 1905-ci ildə Zəngəzur bölgəsində də onlarca adam öldürülmüş, evlərə od vuraraq yandırmışlar.

Bütün silah növləri ilə təmin olunmuş erməni quldur dəstələri 1905-ci ilin 2 iyununda Mənkus müsəlman kəndinə hücum etmişlər. Silahsız kəndlilər ailələrini götürüb qaçmağa məcbur olmuşlar. Kənddə qoca və əlil olan 80 yaşlı bir sakin erməni quldurlarının əlinə keçmişdir. Erməni quldurları şişləri qızdıraraq işgəncələr verməklə onu öldürmüşlər. Erməni daşnak dəstələri 1905-ci il iyunun 8-də İrəvan yaxınlığındakı Eçmiədzin qəzasındakı Uşu azərbaycanlı kəndini mühasirəyə almış, buranı işğal etdikdən sonra kişilərin başlarını kəsmiş, südəmər uşaqları süngülərə keçirmişlər. Bu basqın zamanı kəndin məscidi yandırılmışdır. Ermənilər səhərisi Eçmiədzin qəzasındakı Persi, Nazzevan, Kiçik kənd, Kötüklü, Qoşabulaq və İrgu azərbaycanlı kəndlərini də yandırmış, məscidlərə od vurmuş və insanlığa yaraşmayan hərəkətlər edərək murdarlamışlar. Erməni daşnak dəstələri öz çirkin əməllərindən əl çəkməyərək 1905 -ci ilin avqustun sonlarına yaxın Bakı əhalisinə qarşı dəhşətli qırğınlar törətdilər. 1905-ci ilin avqustun 8-də 300-dən çox erməni daşnakı Şuşa qəzasının Vənd kəndinin karvan dəstələrinə hücum etdilər. Çoxlu tacir öldürüldü, əmlakları talan edildi. Kəndin sakini Abbas bəyin oğlunu,qardaşını və bir neçə nökər-naibini qətlə yetirdilər. Onların törətdikləri qanlı qırğınlarının məqsədi və yerli əhalini Şuşanı və Qarabağın dağlıq hissəsinin digər ərazilərini tərk etməyə məcbur etmək idi. Ermənilərin piyada və süvari dəstələri 1905-ci ilin oktyabrın 3-də Azərbaycanın Sırxavənd müsəlman kəndinə hücum təşkil etdilər. Bu zaman kənd əhalisi tamamilə öldürüldü, kənd isə yandırıldı. Bütün bu faktlar bir daha onu təsdiq edir ki, erməni vəhşiliyi dünya üçün təhlükə mənbəyidir. Baxmayaraq ki, bəzi ölkələr, xüsusilə də Fransa, Hindistan, ABŞ, Fars-molla rejimi, Yunanıstan və digər ölkələr ermənilərə himayədarlıq edir onlara hərbi, siyasi, maliyyə dəstəyi göstərirlər. Lakin unudurlar ki, günün birində bəslədikləri erməni terroru onların özlərinə qarşı çevriləcək.

***İLHAM ƏLİYEV***

# Azərbaycanın birgəyaşama modeli

## Prezident İlham Əliyev: "Hamının vahid dost ailə kimi yaşaması, dövlətimiz üçün böyük dəyərdir"

Azərbaycanın dünyada multikulturalizmin ən mükəmməl modelini yaratdığını dedikdə hansısa bir mübaliğə yaratmış olmuruq. Mövcud mühit artıq bu fikri söyləməyə dilindən, dinindən asılı olmayaraq hər bir insanı sövq edir. Ölkəmizin elə bir məkanı yoxdur ki, orada bu mühit ilə qarşılaşmayasan. Bakıda yerləşən Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralı da məhz ölkəmizin tolerant, mehriban birgəyaşama mədəniyyəti baxımından artıq dünya üçün bir örnək olduğunun göstəricisidir. Tarixən müxtəlif xalqların və dinlər arasında qarşılıqlı hörmətə və etimada əsaslanan səmimi dostluq və əməkdaşlıq münasibətlərinin ölkəmizdə mövcudluğu yüksək tolerantlıq ənənələrinin formalaşdığı dünyəvi, çoxmillətli və çoxkonfessiyalı dövlət kimi Azərbaycanı dünyada tanıdıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin avqustun 19-da Bakıda Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralında oldular. Bu ziyarət İsa Peyğəmbərin mücəssəməsi gününə təsadüf edib.

Dini etiqadından asılı olmayaraq hər kəs burada özünü rahat bir şəkildə hiss edir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Bizim pravoslav vətəndaşlarımızın özlərini evlərindəki kimi hiss etmələrinə şadıq. Bu, hamının vahid dost ailə kimi yaşaması, dövlətimiz üçün böyük dəyərdir. Həm xristian, həm müsəlman, həm də yəhudi bayramlarını birlikdə keçiririk. Odur ki, burada belə bir vəhdət var". Müxtəlif dini mənsubiyyətə malik insanlar cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss edirlər. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Sosial bir hadisə olan tolerantlıq cəmiyyətdə əmin-amanlıq, bəşəriyyətdə isə sülh deməkdir. Təbii ki, tolerantlıq mühitinin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, başqa sözlə, ədalətin bərqərarı deməkdir. Müxtəlif siyasi, iqtisadi və coğrafi şəraitlərdə yaşayan xalqların ədalətə çıxışı məhz ilk növbədə çoxmədəniyyətliliyin təmin edilməsindən asılıdır. Bir sözlə, Azərbaycan bu sahədə dünyaya örnək bir dövlət kimi özünü təsdiqləyə bilib.









### PRAVOSLAVLARIN ETİQAD ETDİYİ MƏBƏD

Din tolerantlığın ünvanı olan Azərbaycanda yerləşən Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralı və ya "Jen Mironosits" pravoslav kafedral kilsəsi pravoslav məzhəbinə etiqad edən dindarların ehtiyaclarının ödənməsini məqsədi ilə fəaliyyət göstərir. Tarixi dövrünə diqqət etsək görərik ki, kilsə 1909-cu ildə memar M.F.Verjbitskinin layihəsi əsasında rus stilində, məşhur Azərbaycan milyonçusu və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin şəxsi maddi yardımı və ianələr hesabına inşa edilmişdir. 1920-ci ildə Sovet hakimiyyəti dövründə kilsə ilk bağlanan ibadət yerlərindən biri olmuş, onun baş keşişi isə güllələnmişdir. Məbəd kommunist rejimi vaxtı anbara çevrilmiş, bir müddət sonra isə idmançıların ixtiyarına verilərək, idman zalı kimi istifadə olunmağa başlanmışdır. 1990-cı ildə qanlı Yanvar hadisələri zamanı kilsənin dam örtüyünə iki mərmi düşmüşdür. Bunun nəticəsində dam tamamilə dağılmış, döşəmə çökmüş, divarlar isə çatlamışdır. Məbədin yarıdağılmış binası 1991-ci ildə Rus Pravoslav Kilsəsinin sərəncamına verilmişdir. Bakıda Arxiyerey Kafedrasının təsis edilməsindən sonra kilsədə bərpa işlərinin aparılmasına imkan yaranmışdır. Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksinin Azərbaycana səfəri zamanı 27 may 2001-ci il tarixdə bu məbədi müqəddəs elan etmiş və ona baş kafedral kilsə statusu vermişdir. Bu məbəd 2003-cü ildə azərbaycanlı mesenatların səyləri və Ulu Öndər Heydər Əliyevin bilavasitə qayğısı ilə bərpa olunub və rəsmi olaraq açılıb.

### "AZƏRBAYCANDA AYRI-AYRI XALQLARIN VƏ ETİQADLARIN MƏNSUBLARI YÜZ İLLƏRDİR Kİ, SÜLH VƏ ƏMİN-AMANLIQ ŞƏRAİTİNDƏ YAŞAYIR"

Azərbaycanın bütün xalqların, bütün səmavi dinlərə tapınanların azad yaşadığı bir dövlət olması ölkəmizi tolerantlıq, dözümlülük mərkəzinə çevirib. Çağdaş dünyamızda Azərbaycanda onlarla milli azlığın nümayəndəsi - rus, ukrayn, tat, kürd, belorus, talış, yəhudi, türk, alman, ləzgi, tatar, avar, gürcü, saxur, udin və s. yaşayır və onlar öz dillərindən istifadə edir, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır, özlərinin milli-mədəni birliklərini, assosiasiyalarını və ittifaqlarını yaradırlar. Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, "Saxur" Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, Udinlərin "Orayin" Mədəni Mərkəzi, tatların "Azəri" Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan Slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatarlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti və s. göstərmək olar. Bütün xalqların nümayəndələri öz ayinlərini, milli bayramlarını sərbəst şəkildə yerinə yetirirlər. Azərbaycan Prezidenti İlham Əliyevin Pasxa bayramı münasibəti ilə Azərbaycanın pravoslav xristian icmasını təbrikində bildirdiyi kimi, "Qədim dövlətçilik tarixinə malik olan Azərbaycanda ayrı-ayrı xalqların və etiqadların mənsubları yüz illərdir ki, sülh və əmin-amanlıq şəraitində yaşayır, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, etnik-mədəni özünəməxsusluğunu qoruyub saxlayırlar. Xalqımıza xas zəngin tolerantlıq ənənələrinin, multikultural dəyərlərin təbliği və təşviqi ölkəmizdə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir".

### "ERMƏNİ MƏDƏNİ İRSİ HƏM BAKIDA, HƏM DƏ QARABAĞDA MÜHAFİZƏ OLUNUR"

İnkar olunmaz faktdır bu gün Azərbaycanın ictimai-siyasi həyatında xristian, yəhudi etiqadlı vətəndaşlar yaxından iştirak edir, töhfələrini verirlər. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycan Yəhudiləri dini icması, Avropa Yəhudilərinin Bakı dini icması, Bakı şəhəri Dağ Yəhudiləri dini icması, Bakı Krişna Şüuru dini icması, "Yeni həyat" Xristian İncil dini icması, Gürcü Yəhudilərinin Bakı dini icması, Xilaskar Yevangelik Lüteranların Bakı dini icması və s. onlarla belə qurumlar hər bir millətə ruslara, molokanlara, yəhudilərə, tatlara, saxurların, udilərin sərbəst yaşama və dinc həyat tərzi sürməsi üçün geniş imkanların yaradıldığından xəbər verir. Ölkənin ictimai-siyasi, mədəni həyatında iştirak üçün tam bərabər hüquqa malikdirlər.

Ölkəmizdə bütün tarixi dini abidələr dövlət tərəfindən qorunur, eyni zamanda, dövlət vəsaiti hesabına bərpası təmin edilir. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. Bakıdakı Heydər Məscidi, Gəncədə "İmamzadə" kompleksi kimi binalar da Azərbaycan milli memarlığının və incəsənətinin nailiyyətlərinin parlaq nümunələri olmaqla yanaşı, insanların ibadət və dua etmələrinə imkan yaradır.

Belə bir ənənəyə sahib olan Azərbaycan təəssüf ki, erməni vandallarının təcavüzünə məruz qalıb. Mənbələrdə göstərilir ki, təkcə XIX əsrin əvvəllərində İrəvanda 8 karvansara mövcud olmuşdur. Culfa, Gürcü, Zərrabi xan (Sərrafxana), Tahir, Sulu, Susuz, Avşar, Hacı Əli karvansaralarında üst-üstə 851 köşk mövcud olmuşdur. İrəvanda Şərq memarlıq üslubunda 8 hamam - Şəhər, Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim, Təpəbaşı, Hacı Əli, Hacı Fətəli, Kərim bəy hamamları mövcud idi. Göy məsciddə İrəvan şəhərinin tarix muzeyi yerləşdirilmiş, Zal xan məscidi rəssamların sərgi salonuna çevrilmişdi. Cənab Prezident çıxışlarının birində onu da bildirib ki, erməni mədəni irsi həm Bakıda, həm də Qarabağda mühafizə olunur: "Bununla belə, işğal zamanı 67 məsciddən 65-i Ermənistan tərəfindən dağıdılmışdır. Bu barədə heç bir söz belə deyilmir. Onlar məscidlərimizdə donuz və inək saxlayırdılar, şəhərlərimizi və kəndlərimizi yerləyeksan ediblər".

Azərbaycan tolerant ölkə olaraq dünyada tanındığı bir zamanda ermənilər 30 ilə yaxın işğal altında olan dini abidələrimizi dağıtmış, viran qoymuşdular. "Azad edilmiş bütün torpaqlarda bizim tarixi, mədəni, dini irsimiz ermənilər tərəfindən dağıdılıb, təhqir edilib, sökülüb", - deyə Prezident çıxışlarının birində bildirmişdir. Ulu Öndərin banisi olduğu azərbaycançılıq ideyası xalqımızın multikultural və tolerant dəyərlərinin ideoloji sistemini təşkil etməklə yanaşı, ölkəmizdə yaşayan bütün etnosların vahid maraqlar və vahid dövlət prinsipi ilə mənəvi-siyasi birliyini əlaqələndirir. Ölkəmizdəki tolerantlıq mühiti Azərbaycan Prezidenti İlham Əliyevin bu istiqamətdə apardığı dövlət siyasətinin dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsidir. Azərbaycanda dini və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaş bərabərhüquqlu və öz inancına görə azaddır. Azərbaycan öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunədir.

Ölkəmizdə mövcud olan vəziyyət, reallıqlar dövlət siyasətinin məntiqi nəticəsidir.

***Zümrüd BAYRAMOVA***

# Dünya enerjiyə qənaət rejiminə keçir

***Əgər bu sürətlə istehlak edilməyə davam edərsə yaxın gələcəkdə resursların tükənməsinə görə dünya enerjisiz qala bilər. Bu səbəbdən enerji ehtiyatlarını qorumaq və istehlakda qənaət etmək vacibdir. Enerjidən istifadə zamanı görəcəyimiz kiçik tədbirlər ümumi istehlaka böyük qənaət vəd edir. Edəcəyimiz qənaət isə gələcəyimizə töhfə verəcək. Uşaqlara gözəl gələcək qurmaq üçün enerji və enerji resursları israf edilməməlidir.***

Enerji səmərəliliyi, məhsul və xidmətlərin təmin edilməsi üçün tələb olunan enerji miqdarının azaldılması deməkdir. Məsələn, bir evin düzgün izolyasiyası, ideal temperatura nail olmaq və bu temperaturda saxlamaq üçün daha az istilik və soyutma enerjisi istifadə etməsinə imkan verir. Led işıqlandırmadan istifadə, ənənəvi közərmə üsulu lampalarından istifadə ilə müqayisədə, eyni işıqlandırma səviyyəsinə nail olmaq üçün tələb olunan enerji miqdarını azaldır. Enerji səmərəliliyinin yaxşılaşdırılması çox vaxt, daha səmərəli texnologiya və ya istehsal prosesinin qəbul edilməsi, həmçinin enerji itkilərini azaltmaq üçün ümumi qəbul edilmiş metodların tətbiqi ilə əldə edilir.

Enerjidən istifadənin azaldılması enerji xərclərini azaldır. İstehlakçılar enerjiyə qə-







naət edən texnologiyanın tətbiqi ilə maliyyə xərclərinə qənaət edə bilər. Enerji istifadəsinin azaldılması həm də istixana qazlarının emissiyalarının azaldılması deməkdir. Beynəlxalq Enerji Agentliyinin hesablamalarına görə, binalarda, sənaye proseslərində və nəqliyyatda enerji səmərəliliyinin yüksəldilməsi 2050-ci ilədək dünyanın enerji ehtiyaclarını üçdə bir nisbətədək azalda bilər və qlobal istixana qazları emissiyalarına nəzarət etməyə kömək edə bilər.

Enerji səmərəliliyinin faydalarına, iqlim dəyişikliyinin təsirinin azaldılması, havanın çirklənməsinin azaldılması, oksigenin keyfiyyətinin yaxşılaşdırılması, enerji təhlükəsizliyinin yüksəldilməsi, enerji istehlakçıları üçün azaldılmış qiymət faktorları daxildir. Enerji səmərəliliyini artırmaq üçün bir çox üsullar var və bu gün dünyanın bir çox istehsalçı şəbəkəsi bu qaydaları tətbiq edir.

Dondurucular, sobalar, qabyuyan və paltaryuyan maşınların müasir modelləri köhnə cihazlardan olduqca az enerji sərf edir. Paltarları paltarqurutma maşınında deyil, ipdə, günəşin altında qurutmaq enerji sərfiyyatını əhəmiyyətli dərəcədə azaldır. Mövcud enerjiyə qənaət edən soyuducular, məsələn, 2000-ci illərdəki modellərdən 40 faiz az enerji sərf edir. Beynəlxalq Enerji Agentliyinin hesablamalarına görə, Avropadakı bütün ev təsərrüfatları on ildən artıq köhnəlmiş cihazlarını yeniləri ilə əvəz etsəydilər, hər il 20 milyard kVt/saat elektrik enerjisinə qənaət edilərək



$CO_2$ emissiyalarını təxminən 18 milyard kq azaltmaq olardı. ABŞ-da müvafiq rəqəmlər 17 milyard kVt/saat elektrik enerjisi və 27 milyard kq $CO_2$ olacaq.

Aparılmış araşdırmaya görə, köhnə cihazların dəyişdirilməsi istixana qazı emissiyalarını azaltmaq üçün ən təsirli qlobal tədbirlərdən biridir. Müasir enerji idarəetmə sistemləri həmçinin müəyyən müddətdən sonra boş qalan cihazları söndürməklə və ya aşağı enerji rejiminə keçirməklə enerji istehlakını azaldır. Məsələn, televizora baxmadıqda onu pultdan söndürmək yerinə naqili enerjidən ayırmaq lazımdır. Əgər telefon enerjiyə qoşulmayıbsa enerji cihazını daim naqildə saxlamaq da enerji israfıdır. Enerji səmərəliliyinin pik tələbata təsiri, cihazın nə vaxt istifadə olunduğundan asılıdır. Məsələn, günorta hava çox isti olanda kondisioner daha çox enerji sərf edir. Buna görə də, enerjiyə qənaət edən kondisioner daha sərfəli olacaq.

Bina inşası bütün dünyada enerji səmərəliliyinin artırılması üçün mühüm sahədir, çünki onlar enerjinin böyük istehlakçılarıdır. Binalarda enerji istifadəsi problemi sadə problem deyil, bəlkə də ən çox israf edilən istiqamətdir. Binalardakı ümumi işıqlandırma, istilik, soyutma və ventilyasiya, lift xidməti - hamısı enerji istehlak edir. Ümumi blokların işıqlandırılma sistemi sensor üsulu hərəkətə əsaslanan tipli olsa enerjiyə əhəmiyyətli dərəcədə qənaət edilə bilər. Binaların damına qoyulmuş günəş panelləri ilə də binaların enerji istehlakına qənaət etmək olar.

Binanın yeri və ətrafı, onun temperaturunun və işıqlandırılmasının təbii yolla tənzimlənməsində mühüm rol oynayır. Məsələn, ağaclar, parklar binanın məruz qalacağı küləyin qarşısını ala, bununla da istiliyin mühavizəsi tənzimlənə bilər. Daha soyuq iqlimlərdə binalarının cənuba baxan pəncərə ilə layihələndirilməsi, passiv günəş istiliyini maksimum dərəcədə artırmaqla binaya daxil olan günəşin miqdarını artırır. Binanın dizaynı, o cümlədən enerjiyə qənaət edən pəncərələr, yaxşı izolyasiya edilmiş qapı və divarlar, döşəmə və tavanın əlavə izolyasiyası istilik itkisini 25-50 faiz azalda bilər.

Tünd rəngli dam örtükləri ağ rəngə boyanmış damlardan 39 °C-ə qədər istilik mühavizə edə bilir. Bu damlar istiliyin bir hissəsini binaya ötürürlər. ABŞ-da aparılan tədqiqatlar isə açıq rəngli dam örtüklərinin tünd rəngli dam örtüklərinə nisbətən soyutma üçün 40 faiz daha az enerji sərf etdiyini göstərib. İsti iqlimlərdə ağ dam örtükləri, soyuq iqlimlərdə isə tünd rəngli dam örtükləri enerjiyə qənaət üçün vasitə ola bilər.

Dünyadakı şəhərlərdə milyonlarla küçəni milyonlarla işıq lampaları işıqlandırır. İndi bəzi şəhərlər qeyri-pik saatlarda işıqları zəiflətməklə və ya led işıqlarına keçməklə küçə işığının enerji istehlakını azaltmağa çalışır. Qeyd edək ki, led lampaların enerji istehlakını 50-80%-ə qədər azaltdığı bildirilir. Enerji sərfiyyatını, dolayısı ilə xərclərimizi azaltmaq üçün enerjidən istehlakı minimuma endirməli, beləcə gələcək nəsillər üçün daha təminatlı bir gələcək qurmalıyıq.

***Lalə Mehralı***

# Uşaqlarla yemək bişirmək niyə vacibdir?

***Balanslı qidalanma və yemək uşaqlıqdan həyatın təməl daşlarından biridir. Uşaqları erkən yaşda yemək bişirməyə cəlb etmək meyvə və tərəvəzlərin onlara cəlbedici olmasına kömək edir. O, həmçinin yemək bişirməyə və balanslaşdırılmış pəhrizə müsbət münasibət bəsləyir. Bu, uzun müddətdə qeyri-sağlam həyat tərzinin və piylənmənin qarşısının alınmasında mühüm rol oynayır.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Övladları ilə yemək bişirən valideynlər uşaqlarında bir çox bacarıqları təşviq edirlər. Bir valideyn olaraq sakit qalmaq və uşağınızla nəsə bişirməkdən həzz almaq həmişə asan olmur. Əvvəla, bu anda qalmaq və sonradan zəhlətökən təmizlik haqqında düşünməmək asan deyil, ancaq bu fəaliyyətin uşağınız üçün bir çox faydası olacağını xatırlamaq işinizi asanlaşdıra bilər.









## Uşaqlar sağlam yemək bişirməyi necə öyrənirlər?

Uşaqlar böyüklərin etdiyi bir çox şeylə maraqlanırlar. Onlar ana və atanın mətbəxdə zəhmət çəkdiyini görəndə kömək etmək istəyirlər. Bu maraq birlikdə yemək bişirmək üçün ən yaxşı şərtdir. Hətta kiçik uşaqların da asanlıqla yerinə yetirə biləcəyi tipik "başlanğıc işlərinə" xəmiri qarışdırmaq və ya yoğurmaq, meyvə və tərəvəzləri yumaq, pizza və ya pendirə sous yaymaq və yemək kitabını vərəqləmək daxildir.

Uşaqlar böyüdükcə və özlərinə inamları artdıqca yeni vəzifələr yaranır. Məsələn, məktəbəqədər uşaqlar tərəvəz soyanın köməyi ilə meyvə və tərəvəzləri soymağı çox yaxşı bacarırlar. Onlar hazır olduqda, tərəvəzləri bıçaqla kəsə bilərlər. Alma və ya banan kimi yumşaq meyvələr adi süfrə bıçağı ilə asanlıqla kəsilə bilər, belə ki, hətta kiçik uşaqlar da bunu təhlükəsiz şəkildə sınaya bilərlər.



## Uşaqlarla yemək hazırlayarkən təhsil məqsədləri böyük rol oynayır

Yemək bişirərkən uşaqlar yemək hazırlamağın əyləncəli olduğunu öyrənməlidirlər.

## Yemək bişirərkən hansı bacarıqlar inkişaf etdirilir?

Təhsil baxımından uşaqları yemək hazırlamağa cəlb etməyin bir çox faydası var. Yemək bişirmək müxtəlif əsas bacarıqları öyrədir; riyazi biliklər, məsələn, xəmirin içindəki yumurtaların sayını hesablamaq və ya müəyyən miqdar südü ölçən qaba tökmək... Reseptləri birlikdə oxumaq da uşağın dil inkişafını dəstəkləyir və söz ehtiyatını genişləndirir.

Uşaqlarla yemək bişirmək də onların hisslərini kəskinləşdirməyə kömək edir. Kəsmə, qarışdırma, qızartma səsini eşidirlər. Və təbii ki, onlar müxtəlif yeməkləri görür, hiss edir, qoxulayır və dadırlar. Bu, həm də uşaqlarda yeni yeməkləri sınamağa maraq göstərir.

## Niyə birlikdə bişirməliyik?

Birlikdə yemək bir çox ailələrdə birlik hissini gücləndirmək üçün vacib bir ritualdır. Bu, yemək bişirməyə də aiddir. Çünki uşaqlar neçə yaşında olsalar da, birlikdə yemək bişirmək nəinki onların yeməyə marağını artırır, həm də ailə olaraq birlikdə nəsə etmək imkanı verir.

İlk yemək təcrübələrinin xoş olması və ziddiyyətli təcrübələrə çevrilməməsi vacibdir.



## Uşaqlarla yemək hazırlayarkən faydalı məsləhətlər

Sadə yeməklər edin: Xüsusilə azyaşlı uşaqların diqqət müddəti çox qısadır. Onlar adətən 5-10 dəqiqədən sonra bir işə maraqlarını itirirlər. Bu vaxtdan maksimum yararlanın və kiçiklərin yemək bişirmə vaxtının bitəcəyini qəbul edin.

Birlikdə planlaşdırın: Uşağınızla yemək üçün nəyə ehtiyacınız olduğunu, hansı maddələri və həmçinin hansı mətbəx cihazlarından istifadə edəcəyinizi danışın. Fərdi addımları izah edin. Bu, uşağın bütün prosesi başa düşməsini təmin edir.

Əvvəlcə təhlükəsizlik: Ocağın isti olduğunu aydınlaşdırın və məsələn, uşaqların əl və qollarının tavaya toxunmasının qarşısını alın. Həmçinin uşaqları bıçaqdan istifadə etməyə təşviq edin. Təhlükəsiz kəsmək üçün bıçağı və tərəvəzləri necə düzgün tutmağı izah edin.

Yanında olun: Siz həmişə azyaşlı uşaqlarla mətbəxdə olmalı və onlara nəzarət etməlisiniz. Ancaq daha yaşlı uşaqlar və yeniyetmələrlə belə, heç olmasa arxa planda valideyn kimi iştirak etmək məsləhətdir. Beləliklə, siz uşaqların yeməyin uğurunu və buna görə də onların bişirmək motivasiyasını təhlükə altına qoya biləcək səhvlərə yol verməsinin qarşısını almış olursunuz.

Unutmayın,uşaqlarla yemək hazırlayarkən ən vacib məqsəd əylənməkdir!

***Ayşən Vəli***



# Putinin Bakı səfəri: gözləntilər...

## Yaxud, yay bitir və payız ənənəvi olaraq siyasi səhnədə hər zaman aktivliyi ilə seçilib

***Rusiya prezidenti Vladimir Putinin Azərbaycana səfəri rəsmi dövlət xarakteri daşıyırdı və bu səfər ilk növbədə diplomatik reyestrdə ən yüksəyindən hesab olunur.Putinin Bakıda səsləndirdiyi sözlərindən aydın olduğu kimi, bu səfər uzun müddət idi ki hazırlanırdı. Belə ki, prezident Putinin özü sonuncu dəfə Bakıda 2019-cu ildə olub. Prezident İlham Əliyev isə bu ilin aprel ayında işgüzar səfərdə Vladimir Putinlə görüşüb.***

### Putin 18-i axşam gəldi və 1 gecə Bakıda qalmaq qərarını verdi

Diqqətçəkən daha bir məqam: rəsmi səfər faktiki olaraq Rusiyanın bütün Nazirlər Kabineti ilə müşayiət olundu. Bu fakt isə danışıqların dərinliyindən xəbər verir.Putin 18-i axşam gəldi və 1 gecə Bakıda qalmaq qərarına gəldi.Səfər müddətində altı sənəd imzalandı: üç saziş, üç memorandum. Və...

### Mesaj...

Lavrovun bəyanatı - o, açıq-aşkar Zəngəzur dəhlizindən danışmaqla Ermənistanı haqlı olaraq 2020-ci ildə imzalanmış üçtərəfli razılaşmanı pozmaqda ittiham etdi! Başqa tərəfdən, açıq mətndə Şimal-Cənub dəhlizi faktoru da əsas gündəm oldu. Həmçinin ölkələr arasında ticarət dövriyyəsinin artırılması barədə də razılaşma diqqət çəkdi.Lakin Putinin səfəri ona aid olan hər kəsə bir mesaj da oldu və onun Azərbaycanda xüsusi şəkildə qəbul olunması paralel olaraq İlham Əliyevin mesajı kimi qiymətləndirilə bilər, yaxud eyni xarakter daşıyır.Azərbaycan bununla bəyan etdi ki, müxtəlif dairələrin, xüsusən də onun milli maraqlarına, eləcə də müstəqilliyinə hörmət etməyənlərin fikirləri rəsmi Bakı üçün maraqlı, ya da təsiredici deyil.

### Rusiya Ermənistana qarşı sərt siyasət yürütməyə başlayacaq, bunun "niyəsi" isə bəllidir

Görüş nəticəsində o da bəlli oldu ki, Azərbaycan həmçinin Rusiyanın "Şərqə doğru" yeni xarici siyasət doktrinası çərçivəsində bazarlara çıxış əldə edir.Ən əsası isə bu səfərdən sonra Rusiya Ermənistana qarşı sərt siyasət yürütməyə başlayacaq. Bunun "niyəsi" isə bəllidir: rəsmi İrəvan KTMT-dən imtina edir, Avrasiya İqtisadi İttifaqının və MDB məkanının görüşlərinə qatılmır, Qərbə doğru get-gedə daha çox sığınır, ərazisində ABŞ hərbçilərini və Avropa kəşfiyyatçılarını yerləşdirir...Daha bir məqam: Prezident Putin Prezident Əliyevi BRİKS sammitinə dəvət edib.Rusiyanın Ermənistanla Azərbaycan arasında vasitəçi kimi geri qayıtmaq marağı da var.Beləliklə, yay bitir və payız ənənəvi olaraq siyasi səhnədə hər zaman aktivliyi ilə seçilib.

***Afət Tahirqızı***

# ABŞ qanla qidalanır

## Yeni Şafak: ABŞ yenidən dünyanın ən böyük qan və xaos mənbəyinə çevrilib

Dünyanın ən böyük silah ixracatçısı olan Birləşmiş Ştatlar bundan qazanc əldə etmək üçün müharibələri və regional münaqişələri qızışdırmağa davam edir. Cəmi bir ildə Amerika öz siyasətinin qurbanlarının qanı ilə qidalanaraq 238 milyard dollar dəyərində silah və texnika satıb. Dünyanın ən böyük silah ixracatçısı olan Amerika müharibələr və regional münaqişələrlə qidalanmağa davam edir. Bir gündə Vaşinqton administrasiyası 31 milyard dollar dəyərində, yəni İsrailə - 20 milyard dollar, Polşaya - on milyard, Səudiyyə Ərəbistanına isə 1 milyard dollar dəyərində silah satıb.

Dünyanın hər böhranına qarışan və qanla qidalanan ABŞ üç fərqli satışla bir gündə 31 milyard dollar qazanıb. Rusiya ilə Ukrayna arasında münaqişəni qızışdıran Vaşinqton administrasiyası Polşaya on milyard dollar dəyərində helikopter satıb. İsrail dövlətinə Qəzza zolağında baş verən insan qətliamını maliyyələşdirməklə ABŞ İsrailə 20 milyard dollarlıq silah satışına icazə verib. Yaxın Şərqdə xaos yaradaraq vəkil qüvvələrini regional təhlükəyə çevirən Vaşinqton Səudiyyə Ərəbistanına 750 milyon dollardan çox dəyərində raket və bombalar göndərəcəyini açıqlayıb.



### ABŞ səudiyyəlilərlə münasibətləri yaxşılaşdırmaq niyyətindədir

ABŞ və Səudiyyə Ərəbistanı rəsmilərinin bildirdiyinə görə, Bayden administrasiyası Vaşinqton və Ər-Riyad arasında böyük mübahisəni həll etməklə, yaxın aylarda Səudiyyə Ərəbistanına 750 milyon dollar dəyərində bomba göndərəcək. Tədarüklərə Səudiyyə Ərəbistanının Yəməndəki müharibəsi səbəbindən 2021-ci ildə prezident Bayden tərəfindən tədarükü dayandırılmış üç min kiçik diametrli bomba və 7,5 min Paveway IV bombası daxil olacaq. Ağ Evin Qəzzada atəşkəslə bağlı danışıqlarda Ər-Riyadın köməyinə ehtiyacı var və İsrail ilə İslam dünyasının güclü ölkəsi olan Səudiyyə Ərəbistanı arasında diplomatik tanınma sövdələşməsinə vasitəçilik etməyə çalışır.

### Polşada satış üçün helikopterlər

Polşa ABŞ-la 96 ədəd AH-64E Apache helikopteri, avadanlıq, logistika və təlimlərin tədarükü üçün on milyard dollarlıq müqavilə imzalayıb. Polşanın PAP agentliyinin məlumatına görə, imzalanma mərasimi İnovroslavdakı 56-cı aviabazada baş tutub. Polşa Müdafiə Nazirliyinin rəhbəri Kosiniyak-Kamış öz çıxışında sazişin imzalandığını elan edərək qeyd edib: "Bu, ordumuzun ən müasir helikopterlərin köməyi ilə transformasiyasında mühüm mərhələdir". ABŞ Ukrayna ilə Rusiya arasında hərbi münaqişənin genişlənməsi riskindən narahat olan bəzi Avropa ölkələrinə də milyardlarla dollar dəyərində silah satıb.

### Soyqırımına 20 milyard dollar dəstək

ABŞ Müdafiə Nazirliyi bildirib ki, dövlət katibi Antoni Blinken İsrailə 20 milyard dollarlıq silah və hərbi təyyarə satışını təsdiqləyib. Pentaqon bildirib ki, satışa icazə verilən silahlar arasında təxminən 19 milyard dollar dəyərində F-15 döyüş təyyarələri və avadanlıqları, təxminən 774 milyon dollar dəyərində tank sursatları və 583 milyon dollarlıq hərbi maşınlar var. ABŞ Dövlət Departamenti tərəfindən Konqresə göndərilən təsdiq bildirişində deyilir ki, silah satışı "İsrailin hazırkı və gələcək düşmən təhdidlərinə qarşı durmaq qabiliyyətini artıracaq".

### İldə 238 milyard dollar satış

Bu ilin yanvar ayında açıqlanan məlumatlara görə, ABŞ-ın silah satışından əldə etdiyi gəlir əvvəlki illə müqayisədə 56% artaraq 238 milyard dollara çatıb. Müdafiə qabiliyyətini yüksəltməyə çalışan Ukraynanın qonşusu Polşa Amerikadan ən çox silah alan ölkələrdən birinə çevrilib. Polşa HIMARS çoxillik raket sistemləri üçün on milyard dollar, M1 Abrams tankları üçün isə 3,7 milyard dollar ödəyib. Bolqarıstan təxminən bir milyard yarım dollar dəyərində Stryker zirehli transportyorları, Norveç isə bir milyard dollar dəyərində çoxməqsədli helikopterlər alıb. Çexiya ABŞ-dan 5,6 milyard dollar dəyərində F-35 qırıcıları və döyüş sursatları alıb. Cənubi Koreya F-35 qırıcıları üçün beş milyard dollar, Avstraliya isə C130J-30 Super Hercules təyyarələrinə 6,3 milyard dollar xərcləyib. Yaponiya həmçinin E-2D Hawkeye taktiki havadan erkən xəbərdarlıq (AWACS) təyyarəsini almaq üçün 2 milyard dollarlıq müqavilə bağladı.

***VƏLİ***

# "Bakcell"in dəstəyi ilə şəhid övladları üçün yay düşərgəsi təşkil olunub

"Bakcell"in baş sponsorluğu və "YAŞAT" Fondunun təşkilatçılığı ilə şəhid övladları üçün "Ənənə" yay düşərgəsi təşkil olunub. Göygöl rayonunun Milli Yaylaq Festivalı ərazisindəbaş tutan tədbirdə 50-dək şəhid övladı iştirak edib. Hərbi vətənpərvərlik və milli ənənələr mövzusuna həsr olunan düşərgə beş gün (13-18 avqust) davam edib. Tədbirdə gənclərin iştirakı ilə qədim milli oyun növləri üzrə yarışlar, müxtəlif təlimlər və interaktiv oyunlar keçirilib.




"Müasir bacarıqlar və innovasiya" adlı təlim düşərgə iştirakçıların xüsusi marağına səbəb olub. Təlimdə "Bakcell"in əməkdaşı Rüfət Quliyev gələcəyin peşələri, ən çox tələb olunan bacarıqlar və bu bacarıqların əldə edilməsində texnologiya və innovasiyanın rolundan danışıb. Bundan əlavə, "Bakcell"in innovativ xidmətləri, "high-tech" və "AI" dəstəkli məhsulları barədə məlumat verilib.

Qeyd edək ki, şəhid və qazilərin ailə üzvlərinə qayğı və diqqətin göstərilməsi "Bakcell" şirkətinin korporativ sosial məsuliyyət (KSM) proqramının əsas istiqamətlərindən biridir.Şirkət bu sahədə təşəbbüsləri dəstəkləməyi və daha da genişləndirməyi planlaşdırır.

# Yaxın Şərqdə atəşkəs olacaqmı?

***Dövlət Departamentinin rəhbəri Antoni Blinken İsrailə səfər edib. Onun səfəri Qətərin paytaxtı Dohada bütün maraqlı tərəflər tərəfindən fərqli qiymətləndirilən danışıqlardan sonra baş tutub. Vasitəçilər, o cümlədən ABŞ HƏMAS və İsrail arasında tezliklə atəşkəs əldə etmək imkanından danışır. İsrail rəsmiləri danışıqları son dərəcə qeyri-müəyyən şəkildə şərh edirlər. Həmas isə artıq sülh prosesinin iflasa uğrayacağını proqnozlaşdırır. Ekspertlərin fikrincə, Ağ Evin əldə edə biləcəyi ən çox şey israilli girovların və bəzi fələstinli məhbusların azad edilməsi ilə müvəqqəti atəşkəsdir.***









